MASTER® BUILDERS SOLUTIONS

# MasterTile® 417

## Keramika və saxsı üçün sement əsaslı yapışdırıcı (incə dənəvərli)

### MATERİALIN TƏQDİMATI

**MasterTile® 417** – saxsı (fayans), keramika və mərmər üçün yüksək möhkəmlikli sement yapışdırıcısıdır.

**EN 12004 – C1TE** sinfi üçün uyğundur.
C1 = Normal sərtləşən sement əsaslı yapışdırıcı;
T = Sürüşmə xüsusiyyəti azaldılmış;
E - Açıqda gözlədilmə müddəti artdırılmış.

### TƏTBİQ SAHƏSİ

- Şaquli və üfüqi səthlərdə, daxildə tamamlama işlərində;
- (Bəzəkvurma, haşiyə və s.) işlərinin yerinə yetirilməsində;
- Saxsı, keramika və mərmərlərin vanna otağına, mətbəxə, dəhlizə və digər bunun kimi yerlərə yapışdırılmasında;
- Xarici məkanlarda işləyən zaman **MasterTile® WP 666 B** qarışdırılması məsləhət görülür.

### ÜSTÜNLÜKLƏRİ

- Asan qarışdırılması və rahat işlədilməsi;
- Uzun müddət işləmə qabiliyyətini saxlaması;
- Şaquli səthlərdə sürüşməməsi
- Yüksək yapışdırıcı gücə sahib olması kimi üstünlüklərə malikdir.

### SƏTHİN HAZIRLANMASI

Tətbiq sahəsinin təmiz, quru, möhkəm olması lazımdır. İstifadə yerinin yapışdırıcını zəiflədəcək hər bir şeydən yəni yağdan, pasdan azad olması eyni zamanda tərəzisində olması lazımdır. Əgər səthdə 5-20 mm dərinlikdə kiçik boşluqlar varsa, **MasterEmaco®S** təmir materialları ilə düzədilməlidir. Tətbiq sahəsinin səthi +25°C-dən çox olarsa, səth nəmləndirilməlidir.

### QARIŞDIRILMASI

Uyğun su miqdarını bir ölçü qabı ilə təmiz bir qaba boşaldılır. Sonra isə **MasterTile® 417** yavaş-yavaş qaba tökərək 400-600 dövr/dəqiqə lik bir qarışdırıcı ilə 3-5 dəqiqə tam şəkildə qarışana qədər qarışdırılır. Tam qarışıq əldə edildikdən sonra 3-5 dəq gözlənilir yenidən 30 saniyə qarışdırılır və istifadəyə verilir.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | | |
|---|---|---|
| Materialın mənşəyi | Tərkibində mineral doldurucular, sintetik əlavələr və xüsusi sement var. | **WK** |
| Rəngi | Boz-ağ | |
| Qopartma zamanı yapışma müqaviməti | ≥0,50 N/mm2 (28 günlük) |  |
| Tikişlərin doldurulma müddəti | 24 saat | |
| Tətbiq qalınlığı | Min. 3 mm Mak. 8mm | |
| Açıqda gözləmə müddəti | 30 dəqiqə | |
| Yapışma | Minimum %90 | |
| Tətbiq olunan temperaturu | +5°C +25°C | |
| İstismar temperaturu | -40°C +80°C | |
| Hazırolma müddəti | 3-5 dəqiqə | |
| İşləmə qabiliyyəti müddəti | 2 saat | |
| Üstündə gəziləbilmə müddəti | 24 saat | |

*Yuxarıdakı dəyərlər +23C'də və %50 nisbi nəm üçün verilmişdir.Yüksək temperatur müddətləri qısaldır, aşağı temperatur uzadır.*

# MasterTile® 417
## Keramika və saxsı üçün sement əsaslı yapışdırıcı (incə dənəvərli)

### QARIŞIM NİSBƏTİ

| **MasterTile® 417** | 1 kq toz üçün | 25 kq-lıq kisə üçün |
|---|---|---|
| Qarışdırılan suyun miqdarı | ~ 0,27 litr | ~ 6,75 litr |
| Məhlulun sıxlığı | ~ 1,65-1.8 kq/litr | |

### Tövsiyə olunan daraq dişi ölçüləri

| **Kafel metlax ölçüləri** | **Daraq dişi ölçüləri** | **Döşənən məhlulun qalınlığı** |
|---|---|---|
| 15 smx15 sm'yə qədər | 6 mm | ~2-3 mm |
| 30 smx30 sm'yə qədər | 8 mm | ~3 mm |
| 30 smx30 sm-dən böyük | 10 mm | ~4 mm |

### TƏTBİQ QAYDASI

**MasterTile® 417** işçi səthə malanın hamar tərəfi ilə 1 mm qalınlıqda müntəzəm lay şəklində çəkilir. Yapışdırıcı bərkiməmiş üzlənilməsi üçün açıqda gözləmə müddəti 30 dəqiqə ərzində kifayət edən sahəyə, malanın dişli tərəfi ilə **MasterTile® 417** hamar lay şəklində çəkilir. Qalınlıqlardakı fərqi tarazlamaq və həmçinin səthlərdəki zədələri düzəltmək üçün kafellərin hər lövhəsinin altına 1 mm qalınlıqda məhlul çəkmək lazımdır. Kafellərin yapışdırılması zamanı, onların bütün səthinin məhlulla təmasda olması üçün, üzlük lövhələri məhlulun içərisində üzdürülməlidir. Kafellər ölçülərindən asılı olaraq tövsiyə olunan endə dərz aralıqları saxlanılır. Dərz aralıqlarının doldurulması üçün **Master Builders Solutions** brendinin uyğun dolğu məhsullarından istifadə olunur. **Dərz aralıqlarının tətbiqinə 24 saatdan sonra başlamaq olar.**

**Məhlulun yapışqanlığının yoxlanması**

Çəkilmiş yapışdırıcının səthinə barmaqla toxunulur. Əgər barmaq məhlulla bulaşarsa, tətbiqə davam etmək olar. Əgər barmaq təmiz qalarsa, deməli yapışdırıcının işləmə müddəti başa çatıb. Belə hallarda yapışdırıcını qaşıyıb təmizləmək və təzə yapışdırıcı çəkmək lazımdır.

### SƏRFİYYAT

| **Master Tile® 417** | Məhlulun sıxlığı (kq/litr) | 1mm/m² sahə üçün sərf olunan toz (kq) | Qarışım suyu miqdarı (kq) | Keramik lövhələr üçün daraq dişinin kənar ölçüləri və sərfiyyat (kq/m²) | | |
|---|---|---|---|---|---|---|
| 25 kq | 1,65-1.8 | 1,27 | ~ 6,75 | 6 mm | 8 mm | 10 mm |
| | | | | 3,8 | 5,07 | 6,34 |

### Dərz aralıqlarının tövsiyə edilən eni

| | |
|---|---|
| 5 sm x 5 sm-ə qədər | 3 mm |
| 15 sm x 15 sm-ə qədər | 4 mm |
| 15 sm x 15 sm-dən yuxarı | 6-8 mm |

### AŞAĞIDAKILARA DİQQƏT YETİRİLMƏLİ

- **MasterTile® 417** istifadəsi zamanı havanın temperaturu +5°C-dən az və +25°C –dən yuxarı olarsa, uyğun temperatur gözlənilməlidir. Əgər hava yağışlı, küləkli və ya çox isti olarsa tətbiq edilməməlidir.
- **MasterTile® 417** tətbiq qalınlığı 6 mm-i keçməməlidir.
- Su əmməsi yüksək olan seramiklər, tətbiqdən əvvəl suya doyurulmalıdır.
- Qurumağa başlamış **MasterTile® 417** üzərinə su və ya toz əlavə etmək olmaz.

### ALƏTLƏRİN TƏMİZLƏNMƏSİ

İstifadədən sonra alətlər su ilə asan təmizlənir. Əgər maddə quruyub kafelin üzərində qalarsa, mexaniki olaraq təmizlənir.

### QABLAŞDIRMA

25 kg-lıq polietilen astarlı kraft torba.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır. **"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır. Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

# MasterTile® 417
## Keramika və saxsı üçün sement əsaslı yapışdırıcı (incə dənəvərli)

### SAXLAMA QAYDASI
Ağzı açılmamış orijinal qablaşdırmada quru və üstüörtülü yerlərdə +5°C-dən +25°C-yə qədər temperaturda saxlanılmalıdır. Qısamüddətli saxlanılma zamanı 3 sıradan çox olmayan cərgələrlə yığılmalı və göndərilən zaman da eyni ilə – birinci daxil olan məhsul birinci çıxmalıdır prinsipinə əməl edilməlidir. Uzunmüddətli saxlama zamanı cərgələməyə ehtiyac yoxdur.

### SAXLAMA MÜDDƏTİ
Münasib şərtlərə əməl olunduğu halda saxlama müddəti 12 ay təşkil edir. Qablama açıldığı zaman, qapağın kip oturduğu halda material 1 həftə ərzində istifadə olunmalıdır.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az